# Asəf Cəfərovun rənglər dünyası

İçindəki gözəllik duyğularını başqalarına da göstərmək üçün əvvəlcə Bakıda Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində (1945-1950), sonra isə Moskvada B.L.Surikuv adına Rəssamlıq İnstitutunda (1951-1957) təhsil almış, tanınmış rəssamlardan sənətin sirlərini öyrənmişdir.

Hələ tələbə ikən Qazaxıstanda (1954), Hindistanda və Pakistanda (1956) yaradıcılıq səfərlərində olan Asəf Cəfərov işlədiyi "Pakistana çörək" (1957) adlı diplom işində, eləcə də "Bilərzik seçimi" (1957), "Axşam namazı" (1958) və "Arx kənarında" (1958) lövhələrində özünün qeyri-adi rəng duyumunu, cəlbedici kolorit yaratmaq istedadını nümayiş etdirmişdir. Bu məziyyəti hələ o dövrdə B. İoqanson, S. Gerasimov və M. Abdullayev kimi təcrübəli və gənc rəssamlar dövrü mətbuatda dərc olunan fikirlərində yüksək dəyərləndirmişdir.

1954-cü ildən başlayaraq Beynəlxalq, Ümumittifaq və Respublika sərgilərində davamlı olaraq iştirak edən və 1979, 1983, 1998-ci illərdə fərdi sərgiləri ilə sənətsevərlər qarşısında hesabat verən Asəf Cəfərov ən müxtəlif janrlarda yaratdığı əsərlərlə özünəməxsus duyumlu rəssam olduğunu təsdiqləyə bilmişdir.

Dəfələrlə xarici ölkələrdə yaradıcılıq səfərlərində olan rəssamın dünyagörüşü və əsərlərinin bədii-estetik məziyyətləri zənginləşməklə, həm də milli bədii ənənələrlə tanınan, dəst-xətti formalaşmışdır. Asəf Cəfərovun özünəməxsus yaradıcılığı ona əsl şöhrət gətirmişdir. Təsviri sənətimizin inkişafına verdiyi töhfələrə görə 1964-cü ildə "Əməkdar Rəssam", 1986-cı ildə isə "Xalq Rəssamı" fəxri adlarına layiq görülmüş, 1980-ci ildə Avstriyada keçirilən "Ümumdünya Təsviri Sənət Sərgi"sində "Qran Pri" və Beynəlxalq "Hu-



*"Avtoportret"*

**Asəf Cəfərov zəngin ənənələrə malik olan Azərbaycan təsviri sənətində dərin iz buraxmış fırça ustalarından sayılır. 1927-ci ildə Bakıda - İçərişəhərdə Əli İsgəndər müəllimin ziyalı ailəsində dünyaya göz açan Asəf üçün hələ kiçik yaşlarında bu qədim məkanın dolanbac küçələri, möhtəşəm Qız qalası və Şirvanşahlar sarayı, yazı-pozu anlayanda isə babası Ağadadaşın duyğularla dolu poeziyası gözəlliyə açılan ilk pəncərə olmuşdur.**

may" mükafatının (1998) sahibi olmuşdur. Əsərləri məşhur yerli və xarici ölkə muzeylərində, şəxsi kolleksiyalarda saxlanılır. Bunların sırasında nüfuzlu Dövlət Frelyakov Qaleriyası (Moskva), Şərq Xalqlarının İncəsənəti Muzeyi (Moskva), Müasir Sənətlər Muzeyi (İstanbul), Azərbaycan Dövlət İncəsənət Muzeyi (Bakı), Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi (Bakı) və s. qeyd etmək olar.

Asəf Cəfərov üçün mövzu məhdudiyyəti yoxdur. O, məişət motivlərini də, əmək mövzusunu da, təbiət guşələrini də eyni məhəbbətlə, ancaq fərqli ovqatla, bədii şərhlə tərənnüm edir.

Onun təsvirləri adilikdən çıxıb obrazlara çevrilirlər. Bizcə onun şux ovqatlı təqdimatından başlanan ifadə vasitəsi "sərt üslub"un geniş yayılması qarşılığında bir qədər ciddiləşib, sərtləşsə də nikbin koloriti və inamlı rəsmetmə gücünü saxlaya bilmişdir.

Bu bədii təkamül da təbii olaraq təqdim olunanların düşündürücülüyünü təmin etmişdir. Bu da ilk növbədə çəkdiklərinin hikmət və bədii sehrə bələnməsinin nəticəsində mümkün olmuşdur.

Düşünən və tamaşaçıları da düşünməyə məcbur edən, saya gəlməz həyat motivlərindən heyrətlənməkdən usanmayan Asəf Cəfərov bütün yaradıcılığı boyu axtarışda olduğundan hər yeni əsərində yeni bir bədii-estetik məziyyətlə tanış olmaq mümkündür. Doğrudan da Azərbaycan rəssamlığında az da olsa elə sənətkarlar var ki, yaradıcılığı ilə ətraflı tanış olmağımıza baxmayaraq onlar həmişə açılmamış kitaba bənzəyirlər.

Onlar hansısa yeni əsəri ilə yaradıcılıq imkanlarını yekunlaşdırmır, əksinə, harasa, nəyəsə keçid mahiyyəti daşıyırlar. Odur ki, yaradıcılıq imkanlarını nəhayətsizləşdirərək tamaşaçını sanki bitib-tükənməyən bir intizara məhkum edirlər. Belə azsaylı rəssamlardan biri də məhz Asəf Cəfərov olmuşdur. Bu mənada onun çəkdiyi süjetli tablolar ("Mənim Azərbaycanım", "Sabah haqqında söz", "Oğullar", "Kənd bahadırları", "Xoruz döyüşü" və s.), portretlər ("Arif Məmmədov", "Əliağa Vahid", "Rəşid Behbudov", "Vaqif Mustafazadə", "Mənim ailəm" və s.), mənzərələr ("Bakıda qış", "Günəbaxanlar", "Axşamçağı", "Xınalıq" və s.) və natürmortlar ("Yasəmən", "Qırmızı istiotlu zənbil", "Akvarium", "Emalatxana kətilləri" və s.) zaman-zaman haqlı olaraq tamaşaçını ovsunlayıb, desək, yanılmarıq.

Davamlı olaraq milli mənəvi dəyərləri ilə tanınan, muğam möcüzəli, xalça sehri və ecazkar poetikadan faydalanan, həm də uzaq-yaxın keçmişimizin tarixi və unudulmaz yaşantılarını iç dünyasından keçirən rəssam yaddaqalan obrazlar yaradırdı. Böyük sevgi, istedadla yaradılmış müxtəlif mövzulu və lirik-fəlsəfi şərhli bu əsərlər günbəgün təravətini artıran Asəf Cəfərov dünyasının əsasını təşkil edir.

Bu mənəviyyat dünyasının əbədi sakinləri, məna-məzmun daşıyıcıları müdrik və güclü insanlar, bir də onları obraz səviyyəsinə yüksəldərək vəsf edən rənglərdir.

Bütün bunların hamısı sonda əbədiyyətə qovuşacaqdır. Çünki, bu "Sənət karvanı"nın sarvanı heç vaxt unudulmayacaq xalq rəssamı Asəf Cəfərovun bizə yadigar qalan əsərləridir.


● **Elşən HACIZADƏ,**

● **Şahvələd ƏLİYEV,**

***ADMİU-nun rəssamlıq fakültəsinin müəllimləri***


## Ədəbiyyat


1. N. Həbibov. Rəssamlıqdan söhbət. B. 1961.
2. N. Həbibov. Təsviri sənət haqqında. B. 1967.
3. R. Kərimova. Azərbaycanda portret boyakarlığı. B. 1964.




"Görüş"